«Qəbələ» məqsədinə nail oldu

May ayının 7-də Qəbələ şəhər stadionunda Premyer liqanın XXXIV turu çərçivəsində "Qəbələ"—"Bakı" futbol komandaları qarşılaşmışlar. "Bakı" komandasına 3:1 hesabı ilə qalib gələn "Qəbələ" komandası tarixində ilk dəfə avrokuboklarda iştirak hüququ qazanıb. Apasport.az saytının məlumatına görə 9 yaşlı "Qəbələ" komandası Topaz Premyer liqasının XXXIV turundan sonra Avropa liqasına vəsiqəni təmin edib.

"Bakı" üzərində qələbədən (3:1) sonra Yuri Syominin yetirmələri ən azı 4-cü yeri tutacağını rəsmiləşdiriblər. Buna komandanın 5-ci yerdə qərarlaşan paytaxt təmsilçisi ilə xal fərqinin 6-ya çatdırılması səbəb olub. Son 2 turda Bakı "Qəbələ"yə çatsa belə şəxsi oyunların nəticəsinə görə "Qəbələ" ən aşağısı 4-cü yerdə qərarlaşacaq.

İlk "dördlük"də yer almaq isə "Qəbələ"nin 9 illik tarixində ən yaxşı nəticədir. İndiyədək 5-ci pillədən yuxarı qalxa bilməyən "qırmızı-qaralar" artıq rekordunu rəsmiləşdirib və bürünc uğrunda "Neftçi" olə mübarizə aparacaq.

Premyer Liqanın XXXIV turu çərçivəsində baş tutan "Qəbələ"-"Bakı" (3:1) matçından sonra "qırmızı-qaralar"ın baş məşqçisi Yuri Syomin mətbuata oyun barədə düşüncələrini açıqlayıb. Rusiyalı mütəxəssisin fikirlərini sizlərlə bölüşürük:

"İlk hissədə yaxşı təsir bağışladıq. Bu özünü nəticədə də göstərdi. Fasiləyə lazımi hesabla yollandıq. İkinci hissədə oyunumuz istədiyimiz kimi alınmadı. Nədənsə futbolçular müdafiəyə daha çox diqqət ayırdılar. Bütün tənqidlərə baxmayaraq biz qarşımıza qoyduğumuz məqsədə, bu mövsüm hədəflədiyimiz nəticəyə nail olduq. Komandamız tarixində ilk dəfə Avroliqaya vəsiqə qazandı. Mövsümün sonuna iki tur qalıb. Bu oyunlarda daha yuxarı yerlər uğrunda mübarizə aparacağıq. Həm də ölkə kubokunun finalına hazırlaşacağıq. Bütün "Qəbələ"-sevərləri, rəhbərliyimizi və futbolçularımızı nəticə ilə bağlı təbrik edirəm. Avroliqada oynamaq üçün nə lazımdı? İlk növbədə heyəti saf-çürük etmək və bacardıqca yaxşı hazırlaşmaq".

Biz də "Qəbələ" futbol komandasını təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.

«QƏBƏLƏ».
Foto S. Umuyevindir.

Xoşbəxtlik neçəyədir?

İnsanı xoşbəxt edən fəaliyyət və onların dəyəri hesablanıb

Xoşbəxtliyin maddi dəyəri tapılıb. İngiltərədə aparılan araşdırma bunu müəyyən edib. "London School of Economics" ilk olaraq insanları daha çox hansı hisslərin xoşbəxt etdiyini müəyyən ediblər. Daha sonra bu hiss pul ilə ölçülüb.

Sən demə sənət və mədəni istirahət, idman insanlara illik 5 min funt sterlinq (6500) qazandırmış kimi hiss etdirir. İnsanın özünü ən yaxşı hiss etməsinə kömək edən fəaliyyətlərdən biri rəqsdir. Rəqsin yaşatdığı xoşbəxtliyin dəyəri 1670 funt sterlinqdir (2197 manat). İkinci yerdə 1630 sterlinq (2124 manat) ilə üzməkdir. Bu insanı futbol və velosiped minməkdən iki dəfə xoşbəxt edir. Musiqi dinləməyin maddi dəyəri 742 sterlinqdir (915 manat).

Azərbaycan Respublikası Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə

elan edir

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin, "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin və vergilər nazirliyinin 2008-ci il 26 sentyabr tarixli əmri ilə təsdiq edilmiş "Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi Qaydaları"nın tələblərinə müvafiq aparılır.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə may ayının 5-dən 18-dək aparılır. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib edilmədiyi barədə məlumatı ala bilər.

Sənədləri qəbul edilən namizədlər 30 may-02 iyun 2014-cü il tarixlərində imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı iyun ayının 3-də TQDK-nın müəyyən etdiyi yerdə keçiriləcəkdir.

"Elektron ərizə" formasını doldurmazdan qabaq namizədlər "Sənədlərinin toplanması, yoxlanıması və müsabiqənin keçirilməsi" qaydaları ilə tanış olmalı, yalnız bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Elektron poçtu olan namizədlərin poçt ünvanına qeyd olunan qaydalar və digər məlumatlar göndərilir.

Namizədlər elektron ərizə formasının doldurulması və işə qəbulla bağlı suallarla 403-87-52 nömrəli telefonla Vergilər Nazirliyinə, nazirliyin inzibati binasının qəbul otağına, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Diqqət! Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

Qeyd: Elan olunmuş vakant yerlər haqqında ətraflı məlumat www.taxes.gov.az internet saytında yerləşdirilmişdir.

ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Bum kənd sakinləri Xəlilova Əminə Fərrux qızı, Xəlilova Ruhiyyə Xəlil qızı, Xəlilov Fədail Xəlil oğlu, Xəlilova Günel Xəlil qızının adlarına verilmiş 825 A saylı (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Bum kənd sakinləri Ebişov Ağamirzə Yaqub oğlu, Ebişov İsmayıl Ağamirzə oğlu, Ebişov Nadir Ağamirzə oğlu, Ebişova Leyla Ağamirzə qızı, Mariya Petrovnanın adlarına verilmiş J 0094 saylı (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Aydınqışlaq kənd sakini Əfəndiyev Əliyar Məhəmmədəli oğluna və ailə üzvlərinin adına 29 noyabr 1977-ci il tarixli 26 saylı qərarla verilmiş JN-132 saylı (kodu 40608038) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası ierəfindən Bum qəsəbə sakini Aslanov Vəzir Abduləzim oğlunun adına verilmiş 880 F №-li (kodu 40800038) və 880 A №-li (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Dövlət Yol Polisi bölməsinin yol patrul xidməti müfəttişi polis kapitanı **Əli Qarayev,** həkim

AYDIN RƏHİMOVUN

vəfatından kədərlənir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

10 saylı ərazi vergilər idarəsinin kollektivi iş yoldaşları

İLYASOVA SAHİBƏ MƏCNUN QIZININ

vəfatından kədərlənir mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Rövşən Əfəndiyevə,** anası

XALİDƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.